# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 222** **Bakı şəhəri, 22 aprel 2024-cü il**

**"Cinayət mühakimə icraatında prosessual sənədin verilməsi barədə qəbzlərin formaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 26 yanvar tarixli 2457 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Cinayət mühakimə icraatında prosessual sənədin verilməsi barədə qəbzlərin formaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2024.- 25 aprel, № 83.- S.14.